# *Serbiyanın səfiri:* "Azərbaycan dövlətini qısa müddətdə yüksəksəviyyəli işlərin öhdəsindən gələ bildiyi üçün təbrik edirəm"

**"Mən ilk dəfə 2021-ci ilin iyun ayında burada olmuşam. İndi bu əraziləri tanımaq mümkün deyil. Burada bəzi xarabalıqlardan başqa ətrafda heç nə yox idi. İndi biz insanı heyran edən bir şəhər görürük. Bu ərazilərdə dövlətinizin həyata keçirdiyi işlərin nəticələrini görmək inanılmaz xoşdur. Mən Azərbaycan dövlətini qısa müddətdə yüksəksəviyyəli işlərin öhdəsindən gələ bildiyi üçün təbrik edirəm".**

Bunu AZƏRTAC-a açıqlamasında diplomatik korpus nümayəndələrinin işğaldan azad edilən Ağdama səfəri zamanı




Serbiyanın səfiri Draqan Vladisavljeviç söyləyib.

"Düşünürəm ki, hər şey plana uyğun gedir. Əminəm ki, ölkəniz istədiyinə nail olacaq və buradan uzaq düşmüş insanların hamısı tezliklə geri qayıdıb öz evlərində yaşayacaq", - deyə səfir bildirib.


Azərbaycan.- 2025.-22 iyun (№ 127).- S.4.